2022.- 28 may. S. 8.

Ədəbiyyat qəzeti

# Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadəyə



Əziz Firəngiz xanım! Ad gününüz mübarək!

Sizi, böyük bəstəkarımızı, musiqimizi dünyada şöhrətləndirən görkəmli sənətkarı yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Böyük Üzeyir Hacıbəylinin mənəvi övladı, böyük Qara Qarayev sinfinin ən istedadlı yetirməsi olaraq Siz qədim muğamlarımızın dərin fəlsəfəsini dünya musiqisinin ən müasir üsullarıyla üzvi surətdə birləşdirərək sənət tariximizdə yeni bir səhifə açdınız. Həm bəstəkar, həm də ifaçı kimi dünyada tanınmağınız və təsdiq olunmağınız xalqımızın qürur mənbəyidir. Sizinlə ailəvi dost olmağımızdan məmnunuq. Gələcək bəstəkarlıq və ifaçılıq fəaliyyətinizdə, rəhbərlik etdiyiniz yaradıcılıq təşkilatında Sizə yeni-yeni uğurlar diləyib, möhkəm cansağlığı, ailə sevincləri, hələ çox-çox illər yeni-yeni zirvələri fəth etmənizi arzulayırıq.

Ən səmimi dostluq hissləriylə,

***Zemfira SƏFƏROVA,***

***A N A R***

*27 may 2022*